


Gürcüstanın Batumi şəhərində "EUROWOMAN-2015" adlı üçüncü beynəlxalq qadın biznes forumu keçirilib. Tədbirdə qlobal inkişaf və qadın iş cari məsələləri - beynəlxalq görüşlər, ayrı-ayrı mövzular müzakirə olunub. Bu məqsədlə, Batumidə iki gün dünyanın müxtəlif ölkələrindən olan qadın liderlər, tanınmış ictimai-siyasi xanımlar, diplomatlar, siyasətçilər, alimlər, hökumət rəsmiləri, ictimai xadimlər və başqa rəsmi şəxslər

iştirak ediblər.

Tədbiri Gürcüstan Beynəlxalq Qadınlar Təşkilatının sədri Nino Kviria açaraq, tədbirin əhəmiyyətindən danışıb. O qeyd edib ki, tədbirin məqsədi biznesin inkişafı sahəsində əməkdaşlığın vahid mexanizmlərini yaratmaq üçün müxtəlif ölkələrin , o cümlədən, Azərbaycanın, Ukraynanın, Ruminiyanın, Polşanın və digər bölgələrdən qadın biznes elitasının nümayəndələri iştirak edirlər. Tədbir Gürcüstan Hökuməti və Acarıstan Muxtar Respublikasının himayəsi, eləcə də Ukrayna səfirliyinin təşəbbüsü ilə keçirilib. Biznes forum Biznesin İnkişafı və Avropa Birliyi, Ticarət, Qadınların Beynəlxalq Palatası, və digər aparıcı beynəlxalq təşkilatlar tərəfindən dəstəklənib.

Gürcüstan prezidenti ilə bağlı qapılar arxasında keçirilən görüşdən sonra ölkə başçısının qadınların hüquqlarının müdafiəsi ilə bağlı olacaq bütün təşəbbüsləri dəstəklədiyi, ictimai-siyasi həyatda onların rolunu artırmaq üçün daim hazır olduğu bildirilib. Dövlət başçısının öz iqamətgahında Beynəlxalq Qadınlar biznes forumu “EUROWOMAN-2015” iştirakçılarının şərəfinə ziyafət təşkil etdiyi açıqlanıb. Prezident qadın siyasətçiləri, alimlər və dövlət qulluqçularını salamlayaraq onlara müraciət edib. O, Prezident administrasiyasının qadın hüquqlarının qorunması istiqamətində olunacaq bütün təşəbbüsləri dəstəkləməyə hazır olduğunu bildirib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Fatimə Hüseynova dünyada qadın hüquqlarının qorunması, gender bərabərliyinin təmin olunması sahəsində ciddi tədbirlərin həyata keçirilməsinin zəruriliyini diqqət çəkib. O qeyd edib ki, bu cür ciddi problemlərin aradan qaldırılmasında müxtəlif ölkələrin birinci xanımlarının üzərinə böyük vəzifələr düşür. Ölkəmizin birinci xanımı Mehriban xanım Əliyeva cəmiyyətin müxtəlif sahələrində qadınların rolunun

gücləndirilməsini, onların öz fəaliyyətləri ilə bu prosesdə iştirakının təmin olunmasını indi qarşıda duran ən vacib məsələ hesab edir.

Gürcüstan,Azərbaycan və Ukrayna nümayəndə heyətinin rəhbərləri Nino Kviria , Fatimə Hüseynova və Olqa Azarova öz çıxışlarında hər üç ölkənin ərazisinin işğal olunduğunu, qaçqınların, xüsusilə də , qadınların bu işğaldan əziyyət çəkdiklərini vurğulayıblar. Onlar əminliklə bildiriblər ki, yaxın gələcəkdə hər üç ölkənin ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yurd-yuvalarına dönəcəklər.